MahadSunnah

دلائل النبوة – القرآن محفوظ

QURAN QORUNUR

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Peyğəmbərliyin dəlilləri və peyğəmbərliyin əlamətləri

Qurani kərim

Yəhya ibn Əksəm (Allah ona rəhmət etsin) dedi: Əmir olan Əl-Məmunun bir şurası (yəni mübahisə şurası) var idi. İnsanlar arasında gözəl geyinmiş, xoş ətirli və gözəl üzlü bir yəhudi kişi var idi. Danışan vaxtı gözəl danışıq tərzi var idi.

O Məclisdən ayrıldıqda əl-Məmun onu çağırdı və dedi: Sən Yəhudisən?

O, “Bəli” deyə cavab verdi.

Əl-Məmun ona dedi: “İslamı qəbul et, mən sənə bunu edəcəm, bunu verəcəm” deyə yaxşı vədlər verdi.

Yəhudi: “Mənim dinim atalarımın dinidir” dedi və getdi.

Dedi: Bir il keçdikdən sonra Yəhudi İslamı qəbul edib bizim yanımıza gəldi.

Beləliklə, Fiqh və hədis elmi barəsində səlis danışırdı. Məclisdən ayrıldıqda əl-Məmun onu çağırdı və dedi:

Sən dünənki (keçən ilki) şəxs deyilsən?

O, Əlbətdə deyə cavab verdi.

Əl-Məmun: “İslama daxil olma səbəbin nədir?” deyə soruşdu.

Yəhudi dedi: Dinlə və Allahu Əkbər de.

Mən o gün sizin məclisinizdən çıxdım və bu dinləri sınamaq istədim.

Mən yaxşı dəst-xəttə sahibəm (yəni gözəl yazmağı bacarıram). Ona görə də gedib Tövrata üç nüsxə yazdım. Onda bəzi əlavələr edib bəzi sözləri azaltdım.

Sonra onu kilsəyə daxil etdim. Onu məndən aldılar və onu oxuyub nəzərdən keçirmək üçün özlərini yormadılar.

Sonra gedib İncilə üç nüsxə yazdım. Onda bəzi əlavələr edib bəzi sözləri azaltdım. Sonra onu Yəhudi məbədlərinə daxil etdim. Onu məndən aldılar və onu oxuyub nəzərdən keçirmək üçün özlərini yormadılar.

Sonra gedib Qurana üç nüsxə yazdım. Onu Müsəlman nəşirçilərinin yanına gətirdim. Onlar dedilər ki, “Oxuyub nəzərdən keçirməyənə qədər bunu qəbul edə bilmərik”.

Onlar onda bəzi əlavələr və bəzi naqislikləri üzə çıxardılar. Durub onu yandırdılar və az qala məni öldürürdülər.

Burdan bildim ki, bu kitab Allah ﷻ tərəfindən qorunur. Bu da mənim islama gəlmə səbəbim oldu.[1]

---

[1] Dəlailun-Nubuvva lil-Beyhəqi 7/159